# «MƏNİ QİNAMAYİN» POVESTİNDƏ TƏLİM-TƏRBİYƏ PROBLEMLƏRİ

**S.Ş.QULİYEVA**
***Bakı Dövlət Universiteti***

Əlfı Qasımovun yaradıcılığının mühüm bir qolunu povest janrı təşkil edir. Onun ilk mətbu əsəri 1968-ci ildə yazdığı «Məni qınamayın» povestidir.

Müəllif «Məni qınamayın», «Üç il sonra» və «Sevil» povestlərində, «Adilənin taleyi» romanında qələmə aldığı mövzunu bir növ yeni cəhətlərdən işıqlandırmış, müasirlərimiz olan gənc qadınların qəlbini, həyata və işə münasibətlərini bədii dillə canlandırmışdır. Hələ o vaxtlar ədəbiyyatşünas alim Y.Seyidov yazırdı: «Cəmiyyətin inkişafı inandırıcı surətdə göstərir ki, əsarətdən və bərabərsizlikdən qurtarmış qadınlarımız daha həssas və qayğıkeş olmuş, qadının öz əməl və arzularını müdafıə etməsi üçün möhkəm zəmin yaratmışdır (Y.Seyidov «Mənəvi meyarla». «Kommunist» qəzeti, 1969, 17 noyabr). Əlfı Qasımovım qəhrəmanlarının: gənc müəllimi Şəhlanın («Məni qınamayın»), mühəndis Qəmər xanımın («Üç ildən sonra»), adlı-sanlı mexanizator qadınların və qızlarm pambıqyığan maşınlara yiyələnməsinin təşəbbüsçüsü Sevil Qazıyevanm simasında bu həqiqət özünün bədii inikasını tapmışdır.

Cəmiyyət üçün həmişə aktual olan sırf ailə-məişət məsələlərinə həsr edilmiş «Məni qınamayın» povesti bu cəhətdən xüsusi maraq doğurur. Povestin qəhrəmanı öz sənətinə dərindən bağlanan ana dilimizin gur bulağından körpə balalara su içirən, həyatın mənasını xidmətdə görən bir müəllimin - Şəhla xanımın keşməkeşli həyat yolu ilə tanış oluruq. Müəllimlik sənəti şərəfli, eyni zamanda məsuliyyətli vəzifədir.

Gənc nəslin tərbiyəsi məsələsi, mənəvi təmizlik prinsipi, ictimai borc ideyası «Məni qınamayın» povestinin əsas ana xəttini təşkil edir. Povestdə öz şəxsi səadətini yeniyetmələrin tərbiyəsi yolunda qurban verməyə hazır olan əsl müəllimin yaddaqalan obrazı yaradılmışdır. Gənc yaşında istəkli həyat yoldaşını itirən, övlad sevincindən məhrum olan Şəhla müəllimə analarını itirmiş Sevinc və Bəhruza meyl salır. Onların xoşbəxtliyi üçün cəmiyyətimizə gərəkli adamlar kimi yetişməsi naminə, hətta sevmədiyi bir adama ərə getməyə razı olur. O, bütün çətinliklərə, haqsız təhqirlərə dözür, balaca Bəhruz və Sevincə ulu bir qayğı və səbrlə həm analıq, həm də müəllimlik edir. Oxucu inanır ki, bu uşaqlar cəmiyyətimizə layiq adamlar kimi böyüyəcək, müəllimin bütün ümidlərini doğruldacaq, onu özlərində təkrar edəcəklər. Gərgin ailə və məişət konfliktləri, daxili psixoloji mübarizə və ziddiyyətlər əsasında qurulan povest böyük həyəcanla oxunur, uzun müddət yadda qalır, oxucunu təsvir olunan hadisələr, problemlər barədə düşünməyə vadar edir. Əsərin sonunda qonşuların ifadəsindən və uşaqların özlərinin dindirilməsindən

sonra balaca Bəhruz və Sevinc doğma ataları Qədirin yanında deyil, prof.Cəlal Abdullayevin dediyi kimi «ana» deyə çağırdıqları, əslində də analaşan, müqəddəsləşən Şəhla müəllimə ilə qalmağa qərar verirlər (C.Abdullayev. «Qağayı fəryadı». Ədəbiyyat və incəsənət. 28 dekabr, 1969). Şəhla müəlliməni böyüdən, müqəddəslik mərtəbəsinə qaldıran budur ki, onun uşaqlara qayğısı sadəcə olaraq mərhəmət hissində deyil, ictimai borca, cəmiyyət qarşısında öz vəzifəsinə qeyrətli münasibətdən yaranır, böyük vətəndaşlıq hissindən doğur.

Povest birinci şəxsin dili ilə nağıl edilir. Yazıçı povestdə öz şəxsi səadətini gənc nəslin tərbiyəsi yolunda qurban verən əsl müəllimin yaddaqalan obrazını yaratmışdır. İnsanlara yaxşılıq etməyə çalışan Şəhla müəllimə gənc yaşında istəkli ərini, Qədir isə arvadını itirmişdir. Övlad sevincindən məhrum olan Şəhla müəllimə analarını itirmiş Sevinc və Bəhruza meyl salır. Povestin məzmununda Şəhla müəllimənin nakam taleyi, tənhalığı, mehr-məhəbbətini məktəbə, balaca şagirdlərə salması və s. barədə ətraflı məlumat alırıq. Maraqlı bir təhkiyə vasitəsilə yazıçı oxucunu insan və insanlığın dostu, öz xırdaca işləri ilə kiməsə kömək etməyə, kiməsə lazımlı olmağa çalışan kiçik bir aləmlə tanış edir. Şəhlanın sənəti müəllimlikdir. O, aşağı siniflərdə dərs deyir, uşaqlarla ünsiyyət yaratmağı bacaran bu gənc müəllimə, uşaq psixologiyasını, uşaq qəlbinin əsrarəngiz dünyasını dərindən duyur, onu düzgün istiqamətləndirməyə, orada nəcib, sağlam hisslər yaratmağa çalışır. Ona görə də Şəhla müəllimənin dərs dediyi birinci və dördüncü siniflərdə oxuyan hər iki bacı-qardaşı əvvəlcə bir müəllim, bir pedaqoq kimi sevməsi, sonra isə onların anasız olduqlarını gördükdə bu körpələrin xoşbəxtliyi ilə bağlı cəmiyyətimizə gərəkli vətəndaşlar kimi yetişməsi üçün heç bir dedi-qoduya, «nə deyərlər» sözlərinə əhəmiyyət verməyərək, özünün o qədər də tayı olmayan, sevmədiyi bir adama ərə getməyə razı olması təəccüb doğurmur. O, bütün çətinliklərə, haqsız təhqirlərə dözür, balaca Bəhruz və Sevincə ulu bir qayğı və səbrlə həm analıq, həm də müəllimlik edir. Oxucu inanır ki, bu uşaqlar nəticədə cəmiyyətimizə layiq adamlar kimi böyüyəcək, müəllimin bütün ümidlərini doğruldacaq, onu özlərində təkrar edəcəklər. Gərgin ailə və məişət konfliktləri, daxili psixoloji mübarizə və ziddiyyətlər əsasında qurulan povest böyük həyəcanla oxunur, uzun müddət yadda qalır, oxucunu təsvir olunan problemlər, hadisələr barədə düşünməyə vadar edir.

Əsər bu iki məktəblinin ailədə tərbiyəsi ətrafında Qədirlə Şəhla arasında gedən çəkişmələr əsasında meydana çıxmışdır.

Doğrudur, bu izdivac uğurlu olmur, onlar gec-tez ayrılırlar. Lakin hadisənin bu şəkildə istiqamət alması oxucuda Şəhlaya qarşı zərrə qədər də olsa etiraz doğura bilmir. Prof. C.Abdullayevin dediyi kimi... «Çünki Şəhla heç vaxt Qədirə ərə getmək üçün çalışıb əlləşməmişdi. Onu belə bir addım atmağa vadar edən balaca Bəhruzla, Sevincin taleyi, anasız böyüymələri idi. Başqa sözlə desək, Şəhla fədakarın fədakarı olmuşdu» (C.Abdullayev «Müxtəlif taleli insanlar. «Ədəbiyyat və incəsənət» qəzeti, 1969, 20 noyabr). Povestin sonunda qonşuların ifadəsindən və uşaqların özlərinin dindirilməsindən sonra balaca Bəhruz və Sevinc doğma ataları Qədirin yanında deyil, «ana» deyə çağırdıqları, əslində isə «analaşan, müqəddəsləşən Şəhla müəllimə ilə qalmağa qərar verirlər. Şəhla müəlliməni böyüdən, müqəddəslik mərtəbəsinə qaldıran budur ki, onun uşaqlara qayğısı sadəcə olaraq mərhəmət hissindən deyil, ictimai borc,

cəmiyyət qarşısında öz vəzifəsinə qeyrətli münasibətdən yaranır, böyük vətəndaşlıq hissindən doğur.

Yaxşı ki, uşaqlar öz sövq-təbiiləri ilə Şəhla müəllimənin yaxşı adam olduğunu duymuş və onu özlərinə həqiqi ana hesab etmişlər. Ona görə də povestin sonluğu - uşaqların öz ataları Qədiri atıb onlara həqiqi analıq etmiş Şəhlaya qovuşmalarının təsviri bizi inandırır. Əsərdə sırf ailə-məişət məsələsi alınaraq, ona heç bir kənar mətləb, əlavə şaxələr əlavə edilmir. Bu yığcamlıq yazıçıya imkan vermişdir ki, o götürdüyü bu iki surətin daxili aləminə lazımınca nüfuz edə bilsin.

Yazıçının böyük məhəbbət hissi ilə qələmə aldığı Şəhla müəllimə əsl vətəndaş, qayğıkeş bir ana kimi o qədər inandırıcı detallarla işıqlandırılmışdır ki, oxucu povesti oxuduqca ona hüsn-rəğbəti artır, sanki özünü onun yanında hiss edir.

Ə.Qasımovun başqa müsbət qadın obrazları kimi, Şəhla müəllimə üçün də ömrün mənasını ictimai-faydalı əmək təşkil edir. O, çalışır ki, yaşadığı ictimai quruluşa bir insan kimi, bir vətəndaş kimi, əsl bir müəllim kimi ictimai bir xeyir versin. Əməyi heç olmasa onu dövrəyə alan adamları az da olsa sevindirə bilsin. Şəhla həyatında baş vermiş uğursuzluqla barışmaq istəmir. Mübarizə aparır, yaşayır və yaşatmaq istəyir. Bu mənada Şəhlanın öz dilindən eşitdiyimiz sözlər onun xarakterini açmaq üçün çox səciyyəvidir. «Sevgilimin vaxtsız ölümündən sonra bir müddət məndə həyata qarşı laqeydlik, qeyri-fəallıq, küskünlük əmələ gəlmişdi... Yaxşı ki, uşaqlar var idi. Yaxşı ki, məni hər gün məktəbdə gözləyirdilər.

Yaxşı ki, mən kiməsə, nəyəsə lazım olduğumu hiss edirdim. Yoxsa fikirdən dəli-divanə ola bilərdim, tamamilə bədbinləşər, həyatdan əlimi üzərdim».

Şəhla müəlliməni bizə sevdirən cəhətlərdən biri də ən ülvi məziyyət olan ictimai borc hissini dərindən anlaması, nə iş gördüyünü, kimə xidmət etdiyini, hansı cəmiyyət qarşısında məsuliyyət daşıdığını şüurlu surətdə dərk etməsidir. Elə bunun nəticəsidir ki, «...Əşi nə işimə!...», «Ağrımayan başına niyə buz bağlayırsan?», «...Mənim uşağım deyil ki...» (Ə.Qasımov. «Məni qınamayın», Bakı: Gənclik, 1968, səh. 24) kimi həmişə laqeyd münasibət yaradıb antipedaqoji əhval-ruhiyyə yayan sözlər müəllimənin təbiətinə yaddır. Şəhla evdə də, küçədə də, ictimai yerlərdə də bir müəllimə kimi məktəbyaşlı uşaqların tərbiyəsi barədə fikirləşir. Haraya gedirsə gözlərinin qarşısında Bəhruzla Sevincin surəti canlanır. Tramvayda ədəbsiz sözlər danışan, özündən yaşca böyüklərə söz qaytaran, uşaqlarla kino-teatrların qarşısında veyllənən, «Kazbek» papirosu çəkən, möhtəkarliyə qurşanıb kino bileti alıb-satan məktəblilər də müəllimənin gözlərində Bəhruzlaşır, Sevincə çevrilir, doğmalaşır. Müəllimə belə hallara qarşı laqeyd yanaşa bilmir. Nəzarətsiz dolanan bu «doğmalarının gələcək aqibəti» onun ürəyini ağrıdır. O bilir ki, özlərinin başa düşdüyü kimi hərəkət edən bu yeniyetmələr «mənim» deyilsə, hər halda «bizimdir, cəmiyyətimizindir, zəmanəmizindir...». Bizim yeni qövr etməyə başlayan və dərhal ciddi müalicəyə ehtiyacı olan yaralarımızdır.

Povestdə hadisələr dərinləşdikcə qayğıların da sayı artır. Budur, mənəviyyatsız nadanlığı üzündən valideynin şəxsi nümunəsi unudulmuş, uşağa əsl məhəbbətdən doğan tələbkarlıq zəifləmişdir. Nəticədə uşaqlar

doğru yoldan yayınmış, ictimai-faydalı əməkdən uzaqlaşmış, yalançılığa qurşanmışdır.

Belə bir şəraitdə Şəhla müəllimə bir tərəfdən analarının vəfatından sonra başsız qalan körpələrin üzərində nəzarəti gücləndirirsə, digər tərəfdən əyyaşlığa qurşanıb, ailədən tamamilə perikən, övlad tərbiyə edib böyütməyin məsuliyyətli iş olduğunu anlamaq istəməyən, inkişafında və uşaqların tərbiyəsində lazım olan məsləhətləri qəbul etməyən Qədirin yaramaz əməllərinə qarşı mubarızəni genişləndirir. Müəllimə bilir ki, həyatda yalnız mübarizlər qalib gəlirlər. Bu mübarizənin sonunda mənalı həyat var, səadət var, sevinc var. Səadətdən doğan sevinc isə hər şeydir. Müəllimə inanır ki, onun gələcək üçün yaşadığını, doğru yolda olduğunu Qədir başa düşməsə də, hər halda başa düşənlər vardır, çoxdur və meydana çıxacaqdır.

Kimin haqlı, kimin haqsız olduğu əsərin sonunda məhkəmədə tamamilə aydınlaşır. Məktəbin müəllim kollektivi də, Qədirin qayınanası da (bu Qədirin mərhum arvadının anasıdır), qonşular da, körpələr də Şəhlanın yaxşı adam olduğunu, düzgün hərəkət etdiyini sübuta yetirir, ona qələbə qazandırırlar.

Povestdə Şəhla müəllimənin simasında ailəyə gətirilmiş isti nəfəs çox güclüdür. Belə ki, müəllimənin gəlişi ilə ailəyə sağlam bir ruh daxil olur. Körpələrin qırışı açılır. Qədirin qayınanası gümrahlaşır və sonralar Şəhlanın qayğıkeşliyi ilə tamamilə sağalır. Bütün bu müsbət keyfıyyətlərlə yanaşı, povestdə bəzi hallarda söz sırasının lüzumsuz olaraq pozulmasına, bədii materialın seçilməsində müşahidə olunan ifrat jurnalist sığalına, bəzi dialoq parçalarının qeyri-təbiiliyinə və s. kimi insanlara «anti-üslub» məqamlara baxmayaraq, əsər tərbiyəvi, təsirli və sadə dildə yazılmışdır.

Bütün bu müsbət keyfıyyətlərlə yanaşı, povestdə geniş oxucu tərəfindən mənası başa düşülməyən bir sıra sözlərə də rast gəlirik. Əsərdə epizodik surət kimi verilsə də «...beşmərtəbəli binanı gündə azı 10-15 dəfə liftsiz qalxıb düşən...» ara sözü yayıb, ev yıxmağa çalışan Firəngiz ictimaiyyət qarşısında ifşa olunsaydı, povest bir az da qazanardı. Bununla belə əsərdə əhvalat dolğun, səmimiyyət dərin verildiyindən, oxu zamanı Şəhlanın gəlişindən və Qədirin ailə həyatına mütləq qayıdacağından başqa hər şey unudulur. Şəhla müəllimənin parlaq qələbəsinin fonunda qeyd etdiyimiz ötəri sonluqlar da itib batır.

Biz, ümumiyyətlə, Qədiri yaramazlıqda təqsirləndirib, insanlıq qüruruna toxunmaq fıkrində deyilik, bəlkə pedaqoji tərbiyə cəbhəsindən qədirlərin əqidəsinə yol tapıb həyatın hansı sahəsində isə bilməyərəkdən yorğun düşündüklərini başa salıb düzgün yolla qaytarmaq onlara övlad məhəbbətinin hərarətini aydınlaşdırmaq niyyətindəyik.

Doğrudur, povestdə Qədirlə Şəhladan başqa diqqətlə, hərtərəfli işlənən surətə təsadüf etmirik.

Povestdə ailə, övlad qarşısında, cəmiyyət qarşısında valideynlik borcu məsələsi çox aydın şəkildə qoyulur.

Tənqidçi alim Yəhya Seyidov «Məni qınamayın» povestini səciyyələndirərkən yazır: «Əlfi Qasımovun lirik-psixoloji, sənədli povestlərinin məziyyəti müasirlik və səmimilikdir. Hiss olunur ki, qələmə aldığı hər bir hadisə yazıçını həyəcanlandırmış, dərindən düşündürmüşdür.

«Məni qınamayın...» povestində insan mənəviyyatı, onun daxili aləmi və həyatdakı mövqeyi məharətlə qələmə alınmışdır. Əsərə sənət-

кarlıqla hopdurulmuş müasirliк ruhu povestin bədii-ictimai siqlətini qat-qat qüvvətləndirmişdir. Əsərdə yazıçı mədəniyyəti və səmimiyyəti özünəlayiq yer tapmışdır.

### QEYDLƏR


1. Müasir Azərbaycan ədəbiyyatı (Ali məкtəblər üçün dərslik). Baкı: 2007.
2. Hüseyn Mehdi. Ədəbiyyat və həyat. Baкı: Yazıçı, 1989.
3. Hüseynoğlu Tofiq. Söz - tarixin yuvası. Baкı: Azərbaycan Dövlət Nəşriyyatı, 2000.
4. Xəlilov Pənah. Nəsrimizin üfüqləri, Baкı: Yazıçı, 1982.
5. Abdullayev Cəlal. Müxtəlif taleli insanlar. «Ədəbiyyat və incəsənət» qəzeti, 1969, 20 noyabr.
6. Seyidov Yəhya. Mənəvi meyarla. Əlfi Qasımovun povestləri haqqında. «Kommunist» qəzeti, 1969, 17 iyul.
7. Hacıyev Tofıq. Bizi güldürüb, özü ürəyinə qəm yığırmış. «Ədəbiyyat və incəsənət» qəzeti, 1997, 7 fevral.


## УЧЕБНО-ВОСПИТАТЕЛЬНЫЕ ПРОБЛЕМЫ В ПОВЕСТИ «НЕ ОБСУЖДАЙТЕ МЕНЯ»


С.Ш.КУЛИЕВА


### РЕЗЮМЕ


Одним из основных ветвей в творчестве писателя Альфи Касумова занимает повести. Часть его повестей отражает современные темы. Его первая повесть «Не осуждайте меня» была опубликована в 1968 году. В настоящей повести раскрывается положительный образ школьной учительницы, являющимся примером для общества.

В данной статье целиком и полностью описывается образ педагога Шахлы ханум, ее характер, образованность, любовь к своей профессии, ее внутренний мир. Шахла ханум ради воспитания детей, нуждающихся в ее поддержки, готова жертвовать своим личным счастьем.


## UP-BRINGING PROBLEMS IN THE POEM OF «DON'T REPROACH ME»


S.Sh.GULIYEVA


### SUMMARY


Alfi Gasymov's main creative line are novels. His first novel «Do not reproach me» was published in 1968.

The issues of morality, inner life and his **life** position of the axuthor were skillfully described in this novel.

Modernity which is professionaly absorbed to this novek strengthens its artistic, social value more and more. All these are represented in this article.